# UNİVERSİTET KOLLEKTİVİ "N" SAYLI HƏRBİ HİSSƏNİN BAYRAMINDA



Gəncə şəhərində Daxili Qoşunların "N" saylı hərbi hissəsinin yaranmasının 23 illiyi münasibəti ilə geniş bayram tədbiri keçirilmişdir. Bayram tədbirində Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Rövşən Əliyev, İnzibati təsərrüfat işləri üzrə prorektor Xəyal Hacızadə iştirak etmişlər. Hərbi hissənin yaranması münasibəti ilə təşkil olunmuş tədbirdə öncə Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Daxili Qoşunların "N" saylı hərbi hissə komandiri Rüstəm Dəmirov əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik etdi və qonaqları salamladı.



Tədbirə dəvət olunmuş veteran hərbçilər Faiq Məmmədov və İlyas İbadov çıxış edərək Daxili Qoşunların vətən qarşısındakı xidmətlərindən, Qarabağ savaşındakı mübarizəsindən danışaraq veteranların, Ali Baş Komandan cənab İlham Əliyevin əmrlərinə bir müsəlləh əsgər kimi hazır olduqlarını vurğuladılar.

Şəxsi heyəti təbrik edən Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Rövşən Əliyev müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Daxili Qoşunların yaradılması və təşəkkül tapmasında böyük xidmətlərini qeyd etmişdir.

Tədbirdə daxili işlər nazirinin əmrinə əsasən bir qrup hərbçilərə növbəti rütbə, fəxri fərmanlar təqdim olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**